# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Dost və qardaş ölkə Azərbaycanın bütün ərazisində baş tutan parlament seçkilərinin sülh və güvən içərisində tamamlanmasından böyük məmnunluq duyuruq.

Azərbaycan xalqının iradəsini ortaya qoyan seçkinin nəticələri əsasında formalaşacaq yeni Milli Məclisin "bir millət - iki dövlət" anlayışı ilə ortaq hədəflərə doğru birlikdə yol aldığımız dost və qardaş Azərbaycan xalqı, qardaş Azərbaycan dövləti, Yeni Azərbaycan Partiyası və türk dünyası üçün xeyirli olmasını diləyirik.

Seçilən millət vəkillərini səmimi-qəlbdən təbrik edir, böyük uğurlar arzulayırıq.

***Zafer SIRAKAYA,***
***Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini,***
***Türkiyə Böyük Millət Məclisinin üzvü***

Azərbaycanda baş tutmuş 7-ci çağırış Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyasının əldə etdiyi qələbə münasibəti ilə sizləri səmimi-qəlbdən şəxsim və Kipr türk xalqı adından təbrik edirəm.

"Bir millət - üç dövlət" olaraq hər sahədə münasibətlərimizi inkişaf etdirmək məqsədilə həyata keçirdiyimiz fəaliyyətlər mübarizəmizin nə qədər güclü və önəmli olduğunu ortaya qoymaqdadır. Bu istiqamətdə üç dövlət olaraq fəaliyyətimizin davam edəcəyinə inamım tamdır.

Bu münasibətlə seçkilərin nəticəsinin Azərbaycan xalqına və türk dünyasına xeyirli olmasını diləyir, sizə və dost Azərbaycan xalqına şəxsim və millətim adından sevgilərimi, salamlarımı göndərirəm.

*Hörmətlə,*

***Ünal ÜSTEL,***
***Şimali Kipr Türk Respublikasının Baş naziri,***
***Ulusal Birlik Partiyasının Sədri***

Azərbaycan.- 2024.- 5 sentyabr (№192).- S.1.